**UOT 82-3.512.162**
**https://doi.org/10.59849/2218-4783.2024.2.216**

**AYGÜN ORUCOVA**

# AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROV MOLLANƏSRƏDDİNŞÜNAS ALİM KİMİ

*Naxçıvan ədəbiyyatşünaslıq məktəbi Azərbaycan ədəbiyyatşünaslıq elminin mühüm tərkib hissələrindən biri kimi elmin bir sıra əhəmiyyətli sahələrinə dair fundamental tədqiqatlar ortaya qoyan alimləri ilə seçilir. Bu alimlərin ədəbiyyat tarixçiliyi, ədəbi tənqid və ədəbiyyat nəzəriyyəçiliyi ilə bağlı tədqiqatları bugünün ədəbiyyatşünasları üçün də əvəzsiz mənbələrdir. XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının əsas istiqamətini müəyyənləşdirən, ədəbiyyata mübarizə vasitəsi kimi yanaşmağı tələb edən "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas nümayəndələrinin bədii yaradıcılıqları, ayrı-ayrı əsərləri sovet dövrü və müstəqillik dövrü ədəbiyyatşünaslığında tədqiqat obyekti olaraq seçilmişdir. Bu böyük şəxsiyyətlərin yaradıcılıqlarının bir sahəsini də ədəbiyyat tarixinin məşhur şəxsiyyətləri, onların həyatı və yaradıcılıqları, eyni zamanda müasirləri olan yazıçı və şairlərin əsərləri haqqında dəyərləndirmələr, resenziyaları, ədəbi əlaqələr sahəsindəki xidmətləri təşkil edir. Xüsusən Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar kimi ədiblərdə ədəbiyyatşünaslığın müxtəlif sahələrinə dair məqalələrə və fikirlərə rast gəlirik. Naxçıvanlı ədəbiyyatşünasın bu fikir və məqalələrə münasibəti məqalənin əsas mövzusunu təşkil edir.*

**Açar sözlər**: *ədəbiyyatşünas, məqalə, resenziya, ədəbi-tənqid, ədəbiyyat tarixi.*

**Giriş.** Azərbaycan ədəbiyyatşünaslıq elmində Naxçıvan ədəbi və elmi mühitinin formalaşdırdığı ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Əziz Şərif (1895-1998), tənqidçi, ədəbiyyatşünas, nasir, akademik Məmməd Cəfər Cəfərov (1909-1992), tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, mətnşünas, AMEA-nın müxbir üzvü Abbas Zamanov (1911-1993), AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli (1949) kimi alimlərin müstəsna xidmətləri vardır. Bunlardan elmin ən yüksək zirvəsini fəth etmiş iki ədəbiyyatşünas – akademik Məmməd Cəfər və akademik İsa Həbibbəyli həm də ədəbiyyat nəzəriyyəçisi kimi sanballı tədqiqatlar ortaya qoymuş, xüsusən Azərbaycan romantizminin nəzəri əsaslarını, ideya xüsusiyyətlərini, dünya romantizmi ilə oxşar və fərqli cəhətlərini, romantik lirikanın hansı imkanlara malik olduğunu müəyyənləşdirmişlər. Akademik Məmməd Cəfər Cəfərov ömrünün 60 ilə yaxın bir dövrünü ölkədə ədəbi-nəzəri fikrin inkişafına həsr etmiş, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr və eləcə də estetikanın aktual məsələlərinə dair fundamental araşdırmaları ilə Azərbaycan ədəbiyyatşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

**Təhsili və əsərləri.** Əməkdar elm xadimi, akademik Məmməd Cəfər Naxçıvan Pedaqoji Texnikumunu və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki APU) dil və ədəbiyyat fakültəsini bitirmişdir. Azərbaycan Dövlət Universitetində (indiki BDU) müəllim, dekan, kafedra müdiri, "Ədəbiyyat qəzeti"nin redaktoru, Azərbaycan Yazıçılar İttifaqının Tənqid və ədəbiyyatşünaslıq bölməsinin müdiri olmuşdur. Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun Müasir ədəbiyyat və Ədəbiyyat nəzəriyyəsi şöbələrinin müdiri, institutun direktoru, akademik katibi vəzifələrində çalışmış, 1987-ci ildən Azərbaycan EA Əlyazmalar İnstitutunda elmi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan-rus ədəbi əlaqələrinin, Azərbaycan və Avropa klassik ədəbi irsinin, romantizmin tədqiqinə və s. mövzulara həsr olunmuş 30-dan çox monoqrafiya, kitab, dərslik, 300-

dən çox məqalə onu tənqidçi, ədəbiyyatşünas-alim kimi səciyyələndirir. “Rus ədəbiyyatı tarixi oçerkləri” (1939), “Rus klassikləri” (1969) və üç cildlik “XIX əsr rus ədəbiyyatı tarixi” (1970, 1974) dərslikləri, “Klassiklərimiz haqqında” (1948), “M.F.Axundovun ədəbi tənqidi görüşləri” (1950), “Ədəbi düşüncələr” (1958), “Füzuli düşünür” (1959), “Hüseyn Cavid” (1960), “Azərbaycan ədəbiyyatında romantizm” (1963), “Cəlil Məmmədquluzadə” (1966), “Estetik zövq haqqında” (1965), “Mütəfəkkirin şəxsiyyəti” (1966), “Estetik tərbiyə, ailə və məktəb” (1967), “Həyatın romantikası” (1968), “Sənət yollarında” (1975), “Nizaminin fikir dünyası” (1982) və s. kitab və monoqrafiyalar Azərbaycan ədəbiyyatşünaslığı tarixində öz elmi sanbalını, aktuallığını bu gün də saxlayan əvəzsiz mənbələrdir. Zəngin və çoxşaxəli elmi fəaliyyətilə yanaşı akademik Məmməd Cəfər bədii yaradıcılıqla da məşğul olmuş, “Zurnaçı”, “M.N.”, “Dəmdəməki”, “Zorən təbib”, “M.Zeynaloğlu” imzaları ilə hekayələr çap etdirmiş, miniatür, novella, povest janrlarında qələmini sınamışdır (“Əntiqə adamlar”). İlk bədii əsəri 1942-ci ildə nəşr olunmuş oçerklərdən ibarət “Snayper İlyas” adlı kitabıdır. Son dövrlərdə “Get dolangilən, xainsən hələ” adlı 1965-ci ildə qələmə alınmış, 4 pərdə, 7 şəkildən ibarət pyesi akademik İsa Həbibbəyli tərəfindən çapa hazırlanmış və 2017-ci ildə nəşr olunmuşdur. Əsərin əski əlifbada olan mətnlərini latın qrafikasına fil.f.d. Zəhra Allahverdiyeva transliterasiya etmişdir. Tragikomediyada elmi-tədqiqat institutlarından birində baş verən hadisələrin fonunda keçmiş sovet cəmiyyətindəki ziddiyyətlər göstərilmiş, yeniləşmə zərurəti irəli sürülmüşdür. Əsər ideya-bədii xüsusiyyətlərinə görə, Azərbaycan dramaturgiyasının mühüm yaradıcılıq nailiyyətlərindən biri hesab olunur. Akademik İsa Həbibbəylinin sözləriylə desək, “Azərbaycan elmində milli romantizmşünasların, romantizm tədqiqatçılarının əsas rəhbəri və müəllimi” [3, s. 7] Məmməd Cəfər Cəfərov həm də realizmə dair - böyük mütəfəkkir Mirzə Fətəli Axundovun şəxsiyyəti, ədəbi-tənqidi görüşləri, Azərbaycan tənqidi realizminin yaradıcısı Cəlil Məmmədquluzadə, məşhur mollanəsrəddinçi şair Mirzə Ələkbər Sabir, satirik şeirlər, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadi haqqındakı tədqiqatları ilə də seçilməyə müvəffəq olmuşdur. ““Cəlil Məmmədquluzadə” kitabı Azərbaycan ədəbiyyatında tənqidi realizm və “Molla Nəsrəddin” ədəbi məktəbinin banisi kimi şöhrətlənmiş böyük ədib Cəlil Məmmədquluzadə haqqında ədəbiyyatşünaslıq elmimizdə meydana çıxmış ən sanballı elmi əsərlərdən biridir. Sovet hakimiyyəti illərində yazılıb nəşr edilməsinə baxmayaraq, bu əsərdəki əsas elmi fikirlər, tezislər indi də aktual səslənir. Buna görədir ki, əsər yenidən çapa hazırlanarkən geniş, ciddi, əsaslı ixtisara, yaxud düzəlişə ehtiyac qalmadı” [6, s. 408].

**Cəlil Məmmədquluzadə ilə bağlı tədqiqatlar.** 1960-cı illər həm böyük Azərbaycançı ədib, istedadlı dramaturq, nasir, kiçik hekayənin böyük ustadı Cəlil Məmmədquluzadənin 100 illik yubileyinə hazırlıq işləri aparılırdı, həm də 1966-cı il bütün türk-müsəlman dünyasını aydınladan bir satirik məcmuə olan, Cəlil Məmmədquluzadənin şah əsəri “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasının 60 illik yubileyi tamam olurdu. Bu ərəfədə mövcud ideologiyaya şüursuzcasına xidmət edənlər və “Mirzə Cəlildən imtina etməyin vaxtının çatdığı” fikrində olanlar da olmuşdur” [5, s. 158]. Görkəmli alimin Cəlil Məmmədquluzadənin yazıçı, jurnalist və ictimai xadim kimi fəaliyyətindən bəhs edən əsərinin 1966-cı ildə tamamlanması, əlbəttə ki, təsadüfi deyildi. Həm də Məmməd Cəfər dahi ədibin 100 illik yubileyi münasibətilə SSRİ Yazıçılar İttifaqının Birləşmiş Plenumunda 1966-cı ildə məruzə etmişdir. Bu məruzənin mətni “Cəlil Məmmədquluzadə haqqında söz” adı ilə “Sənət yollarında” kitabında yer almışdır. Eyni ildə qələmə alınmış “Həmişə bizimlə” məqaləsində Cəlil Məmmədquluzadənin bədii yaradıcılığının və onun təşkilatçısı, naşiri və redaktoru olduğu “Molla Nəsrəddin” jurnalının təsir

dairəsinin bir ölkə ilə, bir xalqla məhdudlaşmadığını, "islamın intibahında, müsəlman cəmiyyətinin islah edilməsində həlledici rol oynadığını" [2, s. 147] yazmışdır. Çünki 1966-cı ildə SSRİ-nin tərkibində olan, dini ateizmin təbliğ olunduğu bir zamanda islam dininin intibahından danışmağın özü böyük cəsarət tələb edirdi. Akademik Məmməd Cəfər Azərbaycan ədəbiyyatında bir sıra yeniliklərə imza atan dahi mütəfəkkir Mirzə Fətəli Axundovla başlayan realist ədəbiyyatı Cəlil Məmmədquluzadənin yüksək xəlqilik, zəngin milli kolorit, müasir ruh və estetik zövqə əsaslanaraq "fikir, düşüncə ədəbiyyatı, döyüşkən ədəbiyyat, sözaltı məna ədəbiyyatı", [2, s. 150] yəni XX əsrin tələb etdiyi ədəbiyyat səviyyəsinə qaldırdığını "sosialist realizmi" və ya "tənqidi realizm" terminlərindən istifadə etmədən vurğulayaraq Mirzə Cəlil yaradıcılığına yeni həyat bəxş etməyə nail olmuşdur. Məqalədə həmçinin, jurnalın əsas müəlliflərinin tarixi xidmətlərini xatırlatmaqla yanaşı, dəyərli alim bu əvəzsiz mənbənin müasiri olduğu dövr və gələcək üçün əhəmiyyətini, aktuallığını xüsusi vurğulayaraq, onun faksimilesinin nəşrini başa çatdırmağı əsas vəzifələrdən biri kimi qiymətləndirmişdir. Məqalədə Cəlil Məmmədquluzadə "zəngin ictimai məzmunlu əsərləri ilə, xalq üçün döyünən nəcib qəlbi ilə bizim canlı, müdrik müasirimiz" [2, s. 150] adlandırılır, xüsusən "hər cür cismani və ruhani əsarətə qarşı mübarizə aparan xalqlarçün" [2, s. 151] çox mühüm əhəmiyyəti olması baxımından Mirzə Cəlilin əsərlərinin və satirik jurnalın Qərb dillərinə tərcüməsi, nəşri və tədqiqatı amili də diqqət mərkəzinə çəkilir. Ədəbi əlaqələrin inkişafında qarşılıqlı tərcümələrin rolundan bəhs edərkən öz xalqının ədəbiyyatını dərindən bağlı olan alim Azərbaycanın dünya ədəbiyyatının inkişafına xeyir verəcək dahi söz ustalarını dünya dillərinə sistemli və ardıcıl tərcümə etməyin artıq zamanı yetişdiyini qeyd etmişdir: "Məlumdur ki, mədəni xalqların çoxu bədii söz ustalarını dünyaya tanıtdırmışlar və biz onların əsərlərini tərcümə edir, öyrənir, onlardan faydalanıb ədəbiyyatımızı inkişaf etdiririk. Biz özümüz də yaradıcılığı bəşəri əhəmiyyət kəsb edən yazıçılarımızı xalqlara yaxşı tanıtdırmalıyıq ki, onlar da bizim söz ustalarımızın yaradıcılığından, mütərəqqi fikirlərindən faydalana bilsinlər" [2, s. 151].

"Cəlil Məmmədquluzadə haqqında söz" adlı məruzəsində dəyərli alim Cəlil Məmmədquluzadəni aydın məqsədi, yüksək amalı ilə ədəbiyyata gələn, xalqının azadlığı naminə əlinə qələm alan, "xalq, vətən haqqında hərtərəfli düşünən, varlığı çox əhatəli bir baxışla dərk edən yazıçılardan" [1, s. 177] hesab edərək onun yaradıcılığını millilik, beynəlmiləlçilik, insanpərvərlik baxımından yüksək dəyərləndirir. Akademik Məmməd Cəfər görünür, ötən əsrin 60-cı illərində də ədəbi mübahisəyə səbəb olan çox mühüm bir məsələyə də bu məruzəsində aydınlıq gətirmişdir. Bu gün olduğu kimi, o zamanlar da tənqidi realizmin mahiyyətinin nədən ibarət olduğunu anlamayanlar Mirzə Cəlili cəmiyyətin müsbət cəhətlərindən yox, nöqsanlarından yazmaqda təqsirləndirmişlər. Alim bu iradlara cavab olaraq Mirzə Cəlilin yüz illərlə yatmış millətin qulağına dirilik şeypuru çalmaqda onların bəsirət gözünü açmağı, dostu ilə düşmənini tanıtdırmağı, zülmü rədd etmək əhval-ruhiyyəsini yaratmağı əsas məqsəd olaraq qarşıya qoyduğunu və azadlıq uğrunda böyük məqsədlərə çatmaqçün cəmiyyəti tamamilə yenidən qurmağın zamanı gəldiyini yazdığını qeyd edir: "Cəlil Məmmədquluzadənin cəmiyyətin nöqsanlarına qarşı amansız olması belə bir yüksək və müsbət estetik ideal ilə əlaqədar idi!" [1, s. 181]. Həqiqətən də, tənqidi realizmin əsasını ayrı-ayrı şəxslərin tənqidi, islah olunması deyil, bu şəxsləri meydana gətirən ictimai quruluşun tənqidi və onun məhvə məhkumluğunun ortaya qoyulması təşkil edirdi. Məruzənin sonunda Cəlil Məmmədquluzadə nəsrinin lakonizmi, dramaturgiyasının "qəhrəmanın ümumxalq taleyi haqqında düşünməsi və böyük ictimai ideal uğrunda mübarizə aparması" [1, s. 186] baxımından nümunəvi bir yaradıcılıq, dahi ədibin

özü isə cəsarəti, möhkəm əqidəsi, sarsılmaz iradəsilə müasir dövr və gələcək nəsillər üçün nümunə adlandırılmışdır.

Dəyərli alimin tarixi romanlar ustadı Məmməd Səid Ordubadinin anadan olmasının 100 illik yubileyi münasibətilə 1972-ci ildə qələmə alınmış "Ordubadi haqqında söz" oçerkində bir şair, dramaturq, jurnalist, memuarist, siyasi publisist, tərcüməçi, qüdrətli nasir-romançı, həm də Şərqşünas alim kimi zəngin bir irs qoyub getmiş Azərbaycan ədibinin yaradıcılığı, tarixi xidmətləri sadalanır, Ordubadi sözün yüksək mənasında xalq yazıçısı, xalq adamı adlandırılır. Xüsusən, Ordubadi yaradıcılığının mövzu-ideya, janr və ədəbi növ zənginliyi, vətənpərvərlik ruhu, bilavasitə Azərbaycanla bağlılığı, istər tarixi, istərsə də müasir mövzulara müraciət edərkən realizmə sadiqliyi, Şərqi "Min bir gecələr Şərqi" [1, s. 194] kimi deyil, "müstəmləkə zülmünə qarşı mübarizəyə qalxan Şərq" [1, s.194] kimi təqdim və təsvir etməsi və s. məziyyətləri alimin diqqətini cəlb etmişdir: "Ordubadinin elə bir əsəri yoxdur ki, Azərbaycanla əlaqədar olmasın. ...ədibin əsərlərində mənsub olduğu xalq öz varlığının, qədimliyinin, zəngin ədəbi-mədəni irsinin, qəhrəmanlıq ənənələrinin və sarsılmaz iradəsinin parlaq bədii inikasını görür" [1, s. 196].

Cəlil Məmmədquluzadənin sözlərilə böyük satirik şair Mirzə Ələkbər Sabir haqqındakı oçerkini (Müəllif özü bu əsəri məqalə hesab etmişdir – A.O.) "Hünərvər şair" (1962) adlandıran akademik Məmməd Cəfər Sabir yaradıcılığının müasirlik ruhunu xüsusi bir məhəbbətlə araşdırmışdır [4, s. 192-237]. Bu əsərin yazılmasında əsas məqsəd Mirzə Cəlilin Sabirə aid etdiyi "hünərvər şair" tərifini şərh etməkdən ibarətdir. Məhz bu səbəbdən Sabirin "Hophop", "Ağlar-güləyən", "Cingöz bəy" və s. imzalarla 1905-1911-ci illərdə qələmə alınmış ictimai məzmunlu satiralarından və bunları yaradan dövrün ziddiyyətlərindən, bu satiraların mövzu dairəsindən ətraflı bəhs edilmişdir. Dəyərli alim Sabirin mədəni cəhətdən geridə qalmış vətəndaşı müasir ruhda tərbiyə etmək kimi böyük bir vəzifəni öz üzərinə götürdüyünü, cəhalətlə mübarizədə hansı vasitələrdən istifadə edəcəyini çox yaxşı bildiyini qeyd etmişdir. Beş hissədən ibarət olan oçerk 1962-ci ildə - məlum olduğu kimi, Mirzə Ələkbər Sabirin anadan olmasının 100 illik yubileyi zamanında qələmə alınmışdır. Alimin əvvəldə də qeyd etdiyi kimi bu əsərin yazılmasında əsas məqsəd Sabirə isnad edilən "hünərvər şair" tərifini şərh etməkdən ibarətdir. Məhz bu səbəbdən də Sabirin köhnə məzmunlu qəzəl-qəsidələrindən, daha doğrusu "Sabir" təxəllüslü şeirlərdən deyil, "Hophop", "Ağlar-güləyən", "Cingöz bəy" və s. imzalarla dərc olunmuş, 1905-1911 ci illərdə qələmə alınmış yeni şeirlərindən, ictimai məzmunlu satiralarından və bunları yaradan dövrün ziddiyyətlərindən, bu satiraların mövzu dairəsindən ətraflı bəhs edilmişdir.

Dəyərli alim Sabirin də, digər mollanəsrəddinçilər kimi, mədəni cəhətdən geridə qalmış vətəndaşı müasir ruhda tərbiyə etmək kimi böyük bir vəzifəni öz üzərinə götürdüyünü, cəhalətlə mübarizədə hansı üsullar və vasitələrdən istifadə edəcəyini çox yaxşı bildiyini qeyd etmişdir.

**Nəticə.** Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan ədəbiyyatı, rus və Avropa ədəbiyyatına dair tədqiqatları ilə Azərbaycan ədəbiyyatşünaslığı, Azərbaycan romantizmşünaslığı, füzulişünaslığı tarixində önəmli mövqeyə malik olan akademik Məmməd Cəfər həm də mollanəsrəddinşünas alim kimi özünəməxsus həqiqət, doğruluq və səmimiyyətlə öz sözünü demişdir. Naxçıvanlı ədəbiyyatşünasın görkəmli mollanəsrəddinçilərin klassik və müasir ədəbiyyatımız, ədəbiyyat nəzəriyyəsi ilə bağlı məqalə və fikirlərindən bəhs edən tədqiqatları həm elmi qənaətlərinin dəqiqliyi, düzgünlüyü, həm də güclü məntiqi ilə diqqəti cəlb edir.

## ƏDƏBİYYAT

1. Cəfərov M.C. Sənət yollarında. Bakı: Gənclik, 1975, 367 s.
2. Cəfər M.C. Həmişə bizimlə. Bakı: Yazıçı, 1980, 361 s.
3. Cəfərov M.C. Cəlil Məmmədquluzadə. Bakı: Çinar-çap, 2002, 72 s.
4. Cəfərov M.C. Seçilmiş əsərləri: 2 cilddə. I c., Bakı: Çinar-Çap, 2003, 360 s.
5. Cəlil Məmmədquluzadə: taleyi və sənəti / Tərtib edəni İsa Həbibbəyli. Bakı: Elm və Təhsil, 2010, 196 s.
6. Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: orujovaaygun82@gmail.com***

**Aygun Orujova**

## ACADEMICIAN MAMMAD JAFAR JAFAROV AS A SCIENTIST OF "MOLLA NASRADDIN" STUDIES

The Nakhchivan school of literary criticism is distinguished by its scholars who have conducted fundamental research in a number of important areas of science, which is one of the important components of Azerbaijani literary criticism. The research of these scholars on the historiography of literature, literary criticism and literary theory are invaluable sources for modern literary scholars. The objects of the study were the artistic creativity and individual works of the main representatives of the literary school of the magazine "Molla Nasraddin", who determined the main direction of Azerbaijani literature at the beginning of the 20th century and demanded to approach literature as a means of struggle, as well as individual works from the literary criticism of the Soviet period and the period of independence. One of the areas of creativity of these great personalities is the study of the life and work of famous figures in the history of literature, their literary connections, assessments and reviews of the works of contemporary poets and writers. In particular, we find articles and opinions on various areas of literary criticism in such writers as Jalil Mammadguluzade, Mammad Said Ordubadi, Aligulu Gamkusar. The attitude of the Nakhchivan literary scholar to these ideas and articles is the main topic of the article.

**Keywords:** *literary scholar, article, review, literary criticism, history of literature.*

**Айгюнь Оруджева**

## АКАДЕМИК МАМЕД ДЖАФАР ДЖАФАРОВ КАК УЧЕНЫЙ, ИЗУЧАВШИЙ «МОЛЛАНАСРЕДДИНЦЕВ»

Нахчыванская школа литературоведения отличается своими учеными, которые провели фундаментальные исследования в ряде важных областей науки, что является одной из важных составляющих азербайджанского литературоведения. Исследования этих ученых по историографии литературы, литературной критике и теории литературы

являются бесценными источниками для современных литературоведов. В качестве объектов исследования были выбраны художественное творчество и отдельные произведения основных представителей литературной школы журнала «Молла Насреддин», определивших основное направление азербайджанской литературы начала XX века и требовавших подойти к литературе как к средству борьбы, а также отдельные произведения из литературоведения советского периода и периода независимости. Одним из направлений творчества этих великих личностей является изучение жизни и творчества известных деятелей в истории литературы, их литературных связей, оценок и рецензий на произведения современных им поэтов и писателей. В частности, мы находим статьи и мнения по различным направлениям литературоведения у таких писателей, как Джалил Мамедгулузаде, Мамед Саид Ордубади, Алигулу Гямкюсар. Отношение нахчыванского литературоведа к этим идеям и статьям является основной темой статьи.

**Ключевые слова:** *литературовед, статья, рецензия, литературная критика, история литературы.*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 20.09.2024**
**Son variant 15.10.2024**